VALYUTA MƏZƏNNƏLƏRİNİN İQTİSADİ ARTIMA TƏSİRİ: ARAŞDIRMA VƏ TƏHLİL

Murad HACIYEV*

Özət: Valyuta məzənnələrinin iqtisadi artıma təsiri ilə bağlı bu tədqiqat, bir ölkənin valyuta məzənnəsindəki dəyişikliklərin iqtisadiyyatının müxtəlif sahələrinə necə təsir etdiyini və bu təsirin xarakterini müəyyənləşdirir. Tədqiqatda əsas olaraq literatur təhlili, məlumatların toplanması və analizi əsasında aparılıb. İqtisadiyyatın əsas göstəriciləri, məsələn, ticarət balansı, ixrac və idxal, maliyyə stabilliyi və s. kimi faktorlar əsasında valyuta məzənnələrinin rolu vurğulanır.

Əsas nəticələr arasında, sabit valyuta məzənnəsinin ölkə iqtisadiyyatında uzun müddətli stabilliyə töhfə verdiyi, lakin sərbəst valyuta məzənnəsinin ölkənin ticarət qabiliyyətinə və ixrac potensialına daha yaxşı bir dəstək olduğu göstərilir. Həmçinin, müxtəlif məzənnə rejimlərinin iqtisadiyyat üzərində müxtəlif təsirləri olduğu vurğulanır və ölkələrin özünəməxsus məqsədlərinə və maliyyə siyasətlərinə uyğun valyuta rejimini seçmələri tövsiyə olunur.

Açar Sözlər: *İqtisadi Artım, Valyuta Məzənnələri, Pul Siyasəti, Ticarət Balansı, Makroiqtisadi Amillər.*

The Impact of Exchange Rates on Economic Growth: A Study and Analysis

Summary: This research on the impact of exchange rates on economic growth examines how fluctuations in a country's exchange rate affect various sectors of its economy and identifies the nature of this impact. The study is based primarily on a literature review, data collection, and analysis. It emphasizes the role of exchange rates in key economic indicators such as the trade balance, exports and imports, financial stability, and others.

The main findings indicate that a fixed exchange rate contributes to long-term stability in a country's economy, while a floating exchange rate better supports a nation's trade capabilities and export potential. Additionally, the study highlights that different exchange rate regimes have varying effects on the economy, and countries are advised to choose an exchange rate regime that aligns with their specific goals and financial policies.

Keywords*: Economic Growth, Exchange Rates, Monetary Policy, Trade Balance, Macroeconomic Factors.*

Giriş

Valyuta məzənnələrinin iqtisadi artıma təsiri mövzusu son dövrlərdə iqtisadiyyatın maraqlı və əhəmiyyətli bir tədqiqat sahəsi olmuşdur və pul siyasəti, ticarət balansı və digər makroiqtisadi amillərlə yaxından bağlıdır. İqtisadiyyatının ən çox diqqət yetirilən məsələlərindən biridir. Bir ölkənin valyuta məzənnəsinin düzgün tənzimlənməsi və optimal dərəcədə saxlanılması, ölkənin iqtisadi artımı və stabilliyi üçün əhəmiyyətli rol oynayır. Araşdırmada məqsəd, valyuta məzənnələrinin iqtisadi artıma təsirini təhlil edib, bu əlaqənin xarakteri və dərəcəsini göstərməklə, iqtisadiyyatın müxtəlif aspektləri arasındakı əlaqəni anlamaq və müəyyən etməkdir. Çünki o, iqtisadiyyatda önəmli bir həlqəni təşkil edir və bir ölkənin iqtisadi durumuna dair əsas göstəricilərdən biri hesab olunur. Bu məqalədə, valyuta məzənnələrinin iqtisadi artıma təsiri ilə bağlı əsas mövzulara diqqət yetiriləcək və mövcud araşdırmalar və təhlillər də nəzərə alınacaqdır.

Tədqiqat literatur təhlili, məlumatların toplanması və nəticələrin qiymətləndirilməsi üsullarından istifadə etməklə aparılmışdır. Bu bizə mövzuya dair ən son araşdırmaları, nəzəriyyələri və praktik məlumatları təhlil etmək imkanı verir. Məlumatların toplanması, müxtəlif iqtisadi dəlillərin və verilənlərin cəmləşdirilməsi və analiz edilməsini təmin edir. Nəticələrin qiymətləndirilməsi, tədqiqatın analizində müəyyən edici rol oynayır və valyuta məzənnələrinin iqtisadi artım üzərindəki təsirini müəyyənləşdirməkdə yardımcı olur.

* Bakı Avrasiya Univeriteti, m.z.haciyev@baau.edu.az, m.hacibeyli@gmail.com Orchid İD: 0000-0003-3216-0845.

DOI :10.30546/100981.1.2024.0280

1. Valyuta Məzənnələrinin Iqtisadi Artıma Təsiri

Dövlətlərin iqtisadi siyasətinin aləti kimi məzənnənin rolu böyükdür. Mərkəzi banklar məzənnənin səviyyəsinə və dinamikasına təsir göstərməklə əsas makroiqtisadi problemləri azaltmağa çalışır. Eyni zamanda, müasir açıq iqtisadiyyatda iqtisadi siyasət alətlərinin seçimi və ümumi effektivliyi əsasən istifadə olunan məzənnə rejimindən asılıdır.[2] O, bir ölkənin iqtisadi artımını sürətləndirən mühüm katalizatorlar kimi təsdiq edilmişdir. Beləliklə, son onilliklərdə müşahidə olunan ciddi dəyişikliklər Azərbaycan kimi sənayeləşməmiş iqtisadiyyatlar üçün böyük maraq doğurur. Ümumiyyətlə, milli valyutanın dəyəri aşağı düşəndə, yerli mal və xidmətlərin xarici bazarlarda daha münasib olması səbəbindən ixrac yüksəlir, daxildə isə idxala daxili tələbat azalır. Milli valyutanın dəyərinin yüksəlməsi əks effekt verir, idxalın rəqabət qabiliyyətini artırır və ixracın maya dəyərini artırır, beləliklə də Azərbaycanın ticarət kəsirini artırmış olur. Beləliklə, yerli valyutanın məzənnəsi qiymətlərin, məhsuldarlığın səviyyəsinin, ölkədə saxlanılan xarici aktivlərin miqdarının və ölkənin, xüsusən də kiçik və açıq iqtisadiyyatı nəzərə alınmaqla investisiya cəlb etmək qabiliyyətinin müəyyən edilməsində mühüm rol oynayır. Müxtəlif tədqiqatlar göstərir ki, sabit valyuta məzənnələri həm uzunmüddətli, həm də qısamüddətli dövrdə ölkənin maliyyə sabitliyinə töhfə verir. Ona görə də bu tədqiqatın əsas məqsədi valyuta məzənnəsinin dəyişməsinin iqtisadi artıma necə təsir etdiyini qiymətləndirmək olmuşdur. Tədqiqatın nəticələri göstərir ki, məzənnə dəyişkənliyi iqtisadi artıma daha çox təsir edir. Tədqiqat tövsiyə edir ki, siyasətçilər qeyri-neft ixracını təşviq etməklə və adekvat səviyyədə valyuta ehtiyatları yaradıb idarə etməklə məzənnəni sabitləşdirməlidirlər. Bu inzibati yolla olmamalıdır. Fiskal və monetar orqanlar ölkə iqtisadiyyatında valyuta məzənnələrinin dəyişməsinin idarə edilməsində ardıcıl və bir-birini tamamlayan yanaşmanı təmin etməlidirlər.

Mümkün olmayan üçlü (Impossible Trinity) həm də "trilemma" adı ilə tanınır və iqtisadiyyatda pul siyasəti sahəsində vacib bir konseptdir. Bu trilemma, bir ölkənin valyuta məzənnəsini sabit saxlamaq, valyuta axınlarını sərbəstləşdirmək və yerli pul siyasətini tam müstəqil saxlamaq imkanlarının eyni anda həyata keçirilməsinin mümkün olmadığını göstərir.

Əslində, bu trilemma mövzusu, iqtisadiyyatda siyasi və maliyyə strateji mübahisələrinin əsasını təşkil edir. Bir ölkə valyuta məzənnəsini sabit saxlayaraq və yerli pul siyasətini müstəqil idarə edərək iqtisadi stabillik və istiqrar təmin edə bilər, lakin bu zaman valyuta axınlarının sərbəstləşdirilməsi mümkün olmur, çünki sabit məzənnələr valyuta axınlarına təsir edir və buna görə də sərbəst axınlar mümkün deyil. Bənzər şəkildə, valyuta axınlarının sərbəstləşdirilməsi və yerli pul siyasətinin müstəqil idarə edilməsi istənildikdə, valyuta məzənnəsinin sabit saxlanması mümkün olmur. Sərbəst valyuta axınları, məzənnəyə təsir edəcək və onu sabit saxlamaq mümkün olmayacaq.

Bu trilemma əsasən bir ölkənin iqtisadiyyatında özəl mübahisələrə və siyasi seçimlərə yansıyır. Hər hansı bir ölkə, öz iqtisadi prioritetləri və məqsədləri ilə uyğun gələn bir pul siyasəti formalaşdırır. Öz iqtisadiyyatında sabit məzənnələri, sərbəst valyuta axınlarını və ya müstəqil pul siyasətini tətbiq etmək, hər hansı bir daxili və xarici iqtisadi fəaliyyətə nəzarət etmək istənilən iqtisadi hədəflərə bağlı olacaq.

Hər bir iqtisadiyyatın özünəməxsus cəhətləri, müstəqillik arzuları və məqsədləri var. Məsələn, bir ölkə sabit valyuta məzənnəsi ilə iqtisadi stabilliyi təmin etmək istəyə bilər, amma bu zaman sərbəst valyuta axınları və müstəqil pul siyasəti mümkün olmayacaq. Ölkə valyuta məzənnəsini sabit saxlayaraq, bu məzənnəni müxtəlif dövrlərdə duruma görə dəyişərək, daxili və xarici istiqrarı təmin edə bilər. Lakin bu zaman, bu ölkənin valyuta məzənnəsinin istifadəsində məhdudiyyətlər və qoruyucu siyasətlər tətbiq edilməlidir.

Valyuta məzənnəsini sabit saxlamaq üçün büdcəsində vəsait saxlamaq və ya müdaxilə etmək məcburiyyətində qalır, buna qarşılıq valyuta məzənnəsini sərbəst şəkildə inkişaf etməsinə icazə verilmir. Valyuta məzənnəsinin istiqamətini və pul siyasətini müstəqil idarə etmək istəyən ölkələr isə geniş valyuta axınlarını təşkil edə bilər və yerli iqtisadi prioritetlər

üçün əlverişli olacaq valyuta məzənnəsi dəyişiklikləri tətbiq edə bilərlər. Lakin bu zaman, məzənnədəki dəyişikliklər iqtisadi stabilliyi təhlükəyə ataraq spekulyasiyaya səbəb olur. Hər bir ölkənin iqtisadiyyatı və maliyyə siyasəti, özünəməxsus məqsədləri ilə uyğun gələn bir vəziyyətdə mümkün olmayan üçlünün hər hansı bir iki üzünü seçmək və ya müstəqil siyasət və strategiyalarla tənzimləmək üçün zəruri görüşlərini aparmaq məcburiyyətindədir. Bu, ölkənin iqtisadiyyatında daxili və xarici təsirlərə və iqtisadi fəaliyyətə dair qərarlarını verərkən nəzərə alınmalıdır.

Azərbaycan kimi ölkələr, mümkün olmayan üçlü (Impossible Trinity) mövzusuna münasibətləri ilə diqqət çəkir. Bu kimi ölkələr yenə də sabit valyuta məzənnəsi və müstəqil pul siyasəti arasında bir seçim etmək məcburiyyətində qalırlar. Azərbaycan, son dövrlərdə sabit valyuta məzənnəsi tətbiq etmiş və valyuta məzənnəsini stabil saxlamaq üçün aktif pul siyasəti tətbiq etmişdir. Bu, ölkənin iqtisadi stabilliyi və istiqrarının qorunmasında effektiv bir yol olmuşdur. Lakin eyni zamanda, bu, valyuta məzənnəsinin sabitliyi üçün vəsaitin qısa müddətli sərmayə axını ilə təmin edilməsinə bağlıdır və bu da ölkənin valyuta ehtiyatlarına sərf olunur.

Mümkün olmayan üçlü kontekstində, Azərbaycan kimi ölkələr xüsusilə Amerika Birləşmiş Ştatlarının valyutasından asılı oluduqları üçün (pərçimlənmiş manat səbəbindən) məzənnəsini uzun müddət sabit saxlamaqda çəinlik çəkirlər. Neft və qaz kimi əhəmiyyətli enerji resurslarına sahib olan ölkələr üçün valyuta məzənnəsini müəyyən etmək kompleks bir məsələdir. Azərbaycan dollarla idxalatı çoxaltdıqca, ölkənin valyuta ehtiyatları azalır və bu da məzənnənin stabil saxlanmasını çətinləşdirir. Bir ölkədə dolların güclənməsi inflyasiyanın artmasına səbəb ola bilir. Beləliklə, valyuta dəyəri artarkən, ölkədə dollarla əldə edilən məhsulların qiyməti də artır, buna görə də inflyasiya yaradır. Bunun bir çox səbəbləri ola bilər, məsələn, dolların artmasına səbəb olan faktorlar, əsasən, dolların dəyərli metallar və enerji kimi məhsullarına olan güclü tələbi nəzərə alır. Belə olan hallarda məsələn, neft və ya qaz idxal edən ölkə üçün, neft və qaz dollarla alınan məhsullardır. Bu məhsulların qiymətinin dolların dəyərinə bağlı olması səbəbindən, dolların artması inflyasiyanın artmasına səbəb olur. Azərbaycanda isə neft-qaz resurlarını dollarla satdığı üçün valyuada olan rezervəri artmış olur. Bu da, dövlət büdcəsinə daha çox gəlir gətirərək iqtisadi stabilliyini dəstəkləyir, dollarlarla valyuta ehtiyatları saxlamağa imkan verir. Ancaq, həm də doğrudur ki, dollara pərçimlənmiş olmaq valyuta riskləri yaradır. Dolların qiymətində dəyişikliklər, Azərbaycanın valyuta ehtiyatlarının dəyərini də dəyişdirə bilər. Məsələn, dolların dəyərinin azalması valyuta ehtiyatlarının dəyərinin azalmasına səbəb ola bilər. Valyuta riskləri, iqtisadiyyatın müxtəlif sahələrində də təsir edə bilər, məsələn, ölkənin borc ödənişləri, məhsulların idxalı və ixracı kimi. Ancaq, digər tərəfdən, neft və qaz kimi məhsulların qiymətinin artması ölkənin valyutasının dəyərini artıra bilər. Beləliklə, bu, ölkənin yerli valyutasının dəyərini artırmaq və inflyasiyanın qarşısını almaq üçün bir fürətə çevrilir.

Bir çox ölkələr, öz valyuta məzənnələrinin sabitliyini təmin etmək məqsədilə müxtəlif strategiyalar hazırlayırlar. Əsasən, valyutanın sərbəstləşdirilməsi və fərqli valyuta mənbələrinə yönələrək məzənnəni tənzimləmək yoluna baş vururlar. Müstəqil pul siyasəti tətbiq etməklə eyni zamanda iqtisadi inkişafı da dəstəkləmiş olurlar. Bununla birlikdə, bu, ölkənin daxili və xarici iqtisadi fəaliyyətində duruma görə dəyişə bilir.

Valyuta ehtiyatlarının sərbəstləşdirilməsi, bir ölkənin maliyyə siyasəti çərçivəsində valyuta ehtiyatlarının idarə edilməsinin, məsələn, ölkənin maliyyə mərkəzləri və ya mərkəzi bank tərəfindən dəstəklənməsindən çıxarılmasıdır. Valyuta ehtiyatlarının sərbəstləşdirilməsi maliyyə siyasətində təhlükəsizlik, effektivlik və şəffaflığın təmin edilməsinə yol açır, onun daha çox muxtariyyət və qərar qəbul etmə qabiliyyəti əldə etməsinə imkan verir. Lakin, valyuta ehtiyatlarının sərbəstləşdirilməsi də bəzi riskləri bərabərində gətirir. Bu, ölkənin maliyyə stabilliyasının və valyuta məzənnəsinin qorunması üçün effektiv idarəetmə və planlaşdırma tələb edir. Həm də valyuta ehtiyatlarının istifadəsi prosesində dəqiqlik, şəffaflıq

və hesabat verməyə ehtiyac duyur. Ümumi olaraq, ölkə iqtisadiyyatının kompleks dəyərləri və fəaliyyəti nəzərə alınmalıdır.

Dünyada valyuta məzənnələrinin əsasən aşağıdakı növləri fərqləndirilir. Bu növlər arasında, hər biri ölkənin iqtisadi və maliyyə siyasətinə və məqsədlərinə uyğun gələn bir məzənnə rejimi seçir. Sabit (fixed), pərçim (pegged), üzən (floating), icarəyə götürülən (managed), çarpaz (cross), birləşdirilmiş (composite), çevrilməz (non-convertible), paralel (parallel), ixrac və idxalatın rəqabət gücünə təsir edən məzənnə, sərmayə qazancını təsir edən məzənnə və s.

Sabit (fixed) məzənnə: Bu növ məzənnədə valyuta dəyəri müəyyən bir rəqəmdə təyin edilir və dəyişmir. Məsələn, ölkənin mərkəzi bankı müəyyən bir valyutanın dəyərini ABŞ dollarına nisbətən müəyyən edir və bu dəyər dövriyyəsiz olaraq saxlanır. Pərçim (pegged) məzənnə: Bu məzənnə növündə də valyuta dəyəri müəyyən bir rəqəmdə təyin edilir, lakin bu dəyər bəzi nisbətlərə və ya başqa dəyərlərə bağlı olaraq dəyişə bilər. Məsələn, ölkənin mərkəzi bankı valyutanın dəyərini ABŞ dollarına nisbətən təyin edir, lakin bu dəyər müəyyən bir aralıqda dəyişə bilər. Üzən (floating) məzənnə: Bu növ məzənnədə, valyutanın dəyəri sərbəst bir şəkildə təyin olunur və tələb və təklifə əsasən dəyişir. Bu məzənnə növü, bazar münasibətləri əsasında formalaşır. İcarəyə götürülən (managed) məzənnə: Bu növ məzənnə mərkəzi bank və ya hökumətin müdaxiləsi ilə tənzimlənir. Valyutanın dəyəri müəyyən bir aralıqda saxlanılır və mərkəzi bank və ya hökumət bazarı tənzimləyir. Çarpaz (cross) məzənnə: Bu məzənnə növündə, iki əsas valyutanın bir-birinə nisbəti əsasında valyuta dəyəri hesablanır. Məsələn, ABŞ dolları və Avro arasında qarşılıqlı məzənnə. Birləşdirilmiş (composite) məzənnə: Bu növ məzənnə, bir ölkənin valyutasının dəyərini birdən çox digər valyutaya nisbətən təyin edir. Bu məzənnə növü, müxtəlif əsas valyutaların (məsələn, ABŞ dolları, Euro, və ya İngilis paundu) bir araya gətirilmiş bir indeksi əsasında hesablanır və ölkənin ticarət və iqtisadi münasibətlərinə uyğun olaraq tənzimlənir. Çevrilməz (non-convertible) məzənnə: Bu məzənnə, ölkənin valyutasının başqa valyutalarla dəyişdirilməsinə icazə vermir. Bu növ məzənnədə ölkədaxili və xarici valyuta əməliyyatlarına məhdudiyyətlər tətbiq olunur, bu isə valyutanın dəyərini müəyyən etməkdə böyük çətinliklər yaradır. Paralel (parallel) məzənnə: Bu növ məzənnə, ölkədə rəsmi olmayan, ancaq fərdilər arasında qeyri-rəsmi bir şəkildə istifadə olunan valyuta dəyəri ilə əlaqəlidir. Paralel məzənnələr yenə də hüquqi məqsədlər üçün rəsmi olmayan valyuta alverləri üçün istifadə olunur və müstəqil valyuta bazarlarında qeyri-rəsmi şəkildə təyin edilir. İxrac və idxalatın rəqabət gücünə təsir edən məzənnə: Valyuta məzənnəsi, bir ölkənin məhsullarını dünya bazarında rəqabətli bir şəkildə satmaq və ixracını artırmaq üçün kritik bir faktordur. Aşağı məzənnəli valyuta, ölkənin ixrac məhsullarının qiymətini rekord dərəcədə aşağı salaraq xarici bazarlarda daha cazibəli hala gətirə bilər. Bu, ölkənin ixracını artırmaq və iqtisadi artımı dəstəkləmək üçün əhəmiyyətli bir mühüm faktordur. Sərmayə qazancını təsir edən məzənnə: Valyuta məzənnələri, sərmayənin ölkəyə giriş və çıxışına da təsir edir. İqtisadiyyatda daha sabit bir valyuta məzənnəsi, ölkəyə sərmayə girişini artıraraq yerli sahələrə yatırım edilməsini təşviq edə bilər. Bunun nəticəsində, istehsalın artırılması, yeni iş yerlərinin yaradılması və nəticədə iqtisadi artım mümkün olur.

Valyuta məzənnəsinin iqtisadi artıma təsiri şübhəsiz ki, həm müsbət (tanımlayıcı), həm də normativ (siyasət resepti) nöqteyi-nəzərindən mühüm məsələdir.[2] Valyuta məzənnələrinin iqtisadi artıma təsiri ölkələr üçün ticarəti artırmaq və istehsalı stimullaşdırmaq xüsusiyyətinə malikdir. Ona görə də valyuta məzənnələrinin iqtisadi artıma təsirinin əhəmiyyətli olması təbiidir. Bununla belə, valyuta məzənnələrinin iqtisadi artıma təsiri tətbiq olunan məzənnə rejimlərindən asılı olaraq fərqlənə bilər. Hər bir məzənnə rejiminin iqtisadi artıma təsirləri müxtəlifdir. Məsələn, ölkə öz valyutasını devalvasiya edərək ixracı təşviq edə və ya idxalı məhdudlaşdıra bilər. Buna görə də valyuta məzənnələrinin iqtisadi artıma təsiri

mürəkkəb məsələdir və məzənnə rejimləri və tətbiq olunan iqtisadi siyasətlər kimi bir çox amillərdən asılıdır.

Əksər iqtisadçılar üçün valyuta məzənnəsinin büyüməyə təsiri ayrışdırılması çətin olan bir dəyişkəndir. Bu, sabit və dəyişən valyuta məzənnəsi rejimləri arasında fərqlər olduğu üçün valyuta məzənnəsinin iqtisadi büyüməyə təsirini dəyişə bilir. Sabit və dalğa valyuta məzənnəsi rejimləri, iqtisadi büyümə üzərində fərqli qısa və uzun müddətli təsirlərə sahibdir. Mübahisələr daha çox sabit və üzən (dalğalı) valyuta məzənnəsi rejimləri arasında olduğu üçün deyə bilərik ki, qısa müddətdə, sabit valyuta məzənnəsi rejimi əsasən iqtisadi sabitliyi təşviq edərkən, dalğa valyuta məzənnəsi rejimi daha çox elastikliyi təmin edir. Amma, uzun müddətdə, valyuta məzənnəsi rejimlərinin təsirləri daha mürəkkəbdir və digər faktorlarla birlikdə dəyərləndirilməlidir.

Valyuta məzənnəsində dəyişkənlik, qeyri-müəyyənlik, qeyri-sabitlik və qərarsızlıq kimi risklərin ölçüsü qəbul olunur. Bu dəyişkənlik əmtəə bazarlarında və maliyyə aktivləri bazarlarında beynəlxalq əməliyyatlar zamanı qeyri-müəyyənliklər yaradır. Başqa sözlə, valyuta məzənnəsinin dəyişkənliyi, investorlar və iş adamları üçün təxmin olunmayan və uğursuz maliyyə risklərinin mövcud olduğu bir mühit yaradır. Bundan əlavə, məzənnə dəyişkənliyi iqtisadiyyatın subyektlərinin pul kütləsi, faiz dərəcələri və gəlirlərdəki dəyişikliklərlə bağlı gözləntilərini də əks etdirir. Məsələn, bir ölkədə dəyişən valyuta məzənnəsi, idxala, ixracata və qiymətlərə təsir edə bilir və s.

Valyuta məzənnəsi iki əsas kanal vasitəsilə iqtisadi artıma müsbət təsir göstərə bilər. İlk olaraq, məzənnə nağd pul riskini azaldır və bu da faiz dərəcələrini aşağıya çəkərək investisiya və artımı təşviq edir. Ona görə də iqtisadi artım müsbət dinamika əldə edir. İkincisi, valyuta məzənnəsi beynəlxalq ticarətin bir hissəsi kimi beynəlxalq əməliyyatların xərclərini azaltmaqla artıma müsbət təsir göstərə bilər [3]. Özəlliklə, çevik valyuta məzənnələrinin fərqli xüsusiyyəti olan onların yüksək volatilliyinin ticarət və investisiyalar vasitəsilə artıma təsir edə biləcəyi vurğulanır [4]. Valyuta məzənnəsinin dəyişkənliyi xüsusilə uzunmüddətli artıma mənfi təsir göstərir [5].

Düzgün tənzimlənmiş bir valyuta məzənnəsi, ölkədə maliyyə stabilliyini təmin edir və investisiya atmosferini gücləndirir. İnvestorlar və müəssisələr, sabit bir valyuta məzənnəsi ilə əlaqədar olaraq ölkədə daha asan investisiya qərarları qəbul edir və ölkəyə olan etimad artır. Ucuz milli valyuta, ölkənin məhsul və xidmətlərinin beynəlxalq bazarlarda rəqabətqabiliyyətini artırar, yəni, ölkənin məhsullarının xarici bazarlarda daha ucuz olmasını təmin edər və bu da ixracatı artırar. Artan ihracat isə iqtisadi artımı təmin edir. Turislərin ölkəyə gəlməsi və yerli xidmətlərin satılmasını təşviq edir. Bu, turizm sektorunun və digər xidmət sektorlarının büyüməsinə səbəb olur. Eyni zamanda ucuz milli valyuta xarici investorlar üçün ölkəyə yatırım etməyi cəlb edir. Yatırımcılar ucuz yerli valyuta ilə daha böyük və ya daha məsuliyyətli aktivlərə yatırım edərək mənfəət əldə edə bilər və bu, iqtisadi artıma təkan verə bilər. Xarici borcun dəyəri baxımından isə zəif valyuta məzənnəsi, ölkənin xarici borcunun dəyərini artırar. Bunun səbəbi, xarici borcun ödənişi üçün lazım olan yerli valyutanın artmasıdır. Bu, xarici borcun ödənişlərinin daha yüksək məbləğlərlə həyata keçirilməsinə və nəticədə ölkənin maliyyə vəziyyətinin pisləşməsinə səbəb ola bilər. Xarici borcların yenidən qiymətləndirilməsi prosesini mürəkkəbləşir. Ölkə, həm ödəmə müqavilələrini dəyişməyə, həm faiz dərəcələrini yeniləməyə, həm də ödəmə müddətlərini dəyişdirməyə məcbur olur. Ölkənin yenidən borc götürməsinə və xarici borc məbləğlərinin artmasına da səbəb ola bilər. Ucuz valyutada borc vermək cazibədar hala gəldiyindən, yatırımcılar bu fürsətdən yararlana bilər və bu da nəticədə ölkənin borcunun, yəni uzunmüddətli ödənişlərin artmasına səbəb ola bilər. Mərkəzi bank və iqtisadiyyatdan məsul şəxslər valyuta məzənnəsindəki dəyişikliklərin xarici borcun mənbələri və ödənişləri üzərindəki təsirlərinə diqqət yetirməlidirlər.

Nəticə olaraq, valyuta məzənnəsi rejimlərinin iqtisadi büyüməyə təsirləri mürəkkəb və zamanla dəyişə bilər. Bu səbəbdən, valyuta məzənnəsi rejimlərinin seçimi və tətbiqi ehtiyatlı şəkildə seçilməlidir və iqtisadi siyasəti formalaşdıran şəxslərin diqqətlə qiymətləndirmələrinə ehtiyac vardır. Valyuta məzənnələrinin iqtisadi artıma təsiri dəyişkəndir və bir çox iqtisadçılar bunun üzərində ətraflı araşdırmalar aparırlar. Amma, çox hallarda valyuta məzənnəsi iqtisadiyyatın bir çox aspektinə təsir edir. Düzgün tənzimlənmə və optimal dərəcədə saxlanılması zamanı, ölkənin iqtisadi artımını dəstəkləyən əsas amillərdən birinə çevrilir.

ƏDƏBİYYAT

1. Ç.Alim “Döviz Kurlari, Diş Ticaret ve Ekonomik Büyüme İlişkisi: Türkiye Üzerine” Bir Uygulama” 2019 https://acikerisim.cumhuriyet.edu.tr/xmlui/bitstream/handle/20.500.12418/12438/10301551.pdf?sequence=1&isAllowed=y
2. A. Bilgen “Döviz Kuru Oynakliğinin Ekonomik Büyüme Üzerine Etkileri: Türkiye Örneği” 2020 http://adudspace.adu.edu.tr:8080/jspui/bitstream/11607/4284/1/638820.pdf
3. R.Dornbusch, S.Fischer, R.Startz "Makroiqtisadiyyat" 2001
4. R.MacDonald “The role of the exchange rate in economic growth: a euro-zone perspective” https://ideas.repec.org/p/nbb/reswpp/200005-5.html
5. B.Niyonsaba “Nexus between Exchange Rate Volatility and Economic Growth: A Theoretical Review” 2023. https://www.researchgate.net/publication/377002479_Nexus_between_Exchange_Rate_Volatility_and_Economic_Growth_A_Theoretical_Review